

Nofəl ÜMİD

## ÇƏKMİŞƏM

Kədər doğub yanaqlarda,
Əritmişəm dodaqlarda,
Şeh qoxuyan varaqlarda
Cilvələnən söz çəkmişəm.

Həyat məndən üz döndərib,
Qisməti bağlı göndərib,
Eşq didərgin, sevda qərib,
Dərdə, qəmə naz çəkmişəm.

Qozbelini əyə-əyə
Keşik çəkir qəm ürəyə,
Gözlərini yumar deyə,
Yarasına duz çəkmişəm.

Kəm arzusu, kəm sevdası,
Həsrətin bitməz qovğası,
Silinmir ki eşq damğası,
Sinəm üstə köz çəkmişəm.

Yaxşı, üzümə şans "gülüb",
Qumarda bəxtim gətirib,
Sevinci min-min itirib,
Kədəri yüz-yüz çəkmişəm.

...Üzərlik asmışam zər yaxasınnan,
Dərdimə heç kimin gözü dəyməsin!..

## HARDASAN?

Adını içimə çəkib,
Ovuc-ovuc dərd qururam.
Sənə əsən, sənə çatan
Küləklərə qışqırıram:
Hardasan?

Həsrətimi yağış yuyur,
Boş qalan əlim üşüyür,
Xəyal da sənə yüyürür,
Diz əsir, ürək tövşüyür,
Hardasan?

Eşqimi sərim yoluna,
Bəxtimi taxım qoluna,
Dünyanın hüzur yerini
Gəzək dolana-dolana,
Hardasan?

Adımı yaz qismətinə,
Çıraq olum zülmətinə,
Yerini de, qaçım, gəlim,
Yolumu salma çətinə,
Hardasan?

Yoxluğun kədər toxuyur,
Baxışlarım nəm qoxuyur,
Sən gələn yolda bükülüb
Bir qərib nəğmə oxuyur:
Hardasan?

## DARIXIRAM...

Sənsizliyə şəfəq saçıb,
Həsrətinə qucaq açıb,
Hər arzuda sənə qaçıb,
Darıxıram...

Sızlayıram həzin-həzin,
Dodağımda dodaq izin.
Qarış-qarış, dizin-dizin
Darıxıram...

Titrəyirəm külək kimi,
Əlçatmazsan mələk kimi,
Çırpınıram ürək kimi,
Darıxıram...

Səsin gəlir, gülür üzüm,
Hardan gəldin, ruh əkizim?!
Keşik çəkir yola gözüm,
Darıxıram...

Tanrının dümağ qarısan,
Sevincimin memarısan,
Bəzən müşkül, bəzən asan –
Darıxıram...

İstəklərim qucaq – qucaq,
Sən qoxuyur hər künc, bucaq,
Hamı xoşbəxtdir, mən ancaq
Darıxıram...

## BİR SƏHƏR AÇILA...

Ayrılıq sevgimə xətt çəkə bilməz,
Mən quran sevgini dərd sökə bilməz,
Başqası kənardan göz dikə bilməz,
Sənin gözlərinin çəkdiyi yola.

Qərarla işləməz, hökmlə getməz,
Yazısı silinməz, naxışı itməz,
Şeytan hiyləsiylə nə atsa, bitməz
Bu sevgi gül-çiçək əkdiyi yola.

Getmisən, dönmüsən əlçatmaz dağa,
Keçilməz sədlər var sən gəzən bağa,
Bir səhər açıla, bir günəş doğa
Qapqara buludlar çökdüyü yola.

Tanrıya əl açam, sorağın düşə,
Bir cənnət istəyəm, qucağın düşə,
Kaş ki, bircə dəfə ayağın düşə
Həsrətim boynunu bükdüyü yola.

## DƏRDLƏRİMƏ GÖZ DƏYMƏSİN

Deyəsən, Tanrının yadınnan çıxıb,
Qəm-kədər düyməsi basılı qalıb,
Ömrün xoş anları dadınnan çıxıb,
Ümidim səbrimnən asılı qalıb.

Nə yeyir, nə içir bu dərd, ay Allah?
Gəl ki günü-gündən artır, çoxalır.
Bir az da sevgi qat ömrə pay, Allah,
Sevinc gen düşdükcə ürək yuxalır.

Arzular nəm tutur, qəlbdə çürüyür,
Ömrün baharını həsrət, qəm yeyir,
Hər kəsin ruhunu matəm bürüyür,
Günəş də əyninə qara don geyir.

Bir az da səbrimi dər çuxasınnan,
İradəm nəfsimə boyun əyməsin.
Üzərlik asmışam zər yaxasınnan,
Dərdimə heç kimin gözü dəyməsin!